**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ QUBA-XAÇMAZ REGİONUNUN SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI (1991-2013-CÜ İLƏDƏK)

İxtisas: 5503.02- Vətən tarixi
Elm sahəsi: Tarix

İddiaçı: **Əfşan Elşən qızı Nərimanlı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Tarix və onun tədrisi metodikası" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Oqtay Balaqədəş oğlu Sultanov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**Ədalət Qasım oğlu Qasımov**

tarix elmləri doktoru, professor
**Vəkil Səfiyar oğlu Həsənov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Azad Əhmədağa oğlu Rzayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

__________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının
Elmi katibi: tarix elmləri doktoru, dosent

__________________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor

__________________ **Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan tarixində dövlət müstəqilliyinin bərpa edildiyi zamandan 2013-cü illədək olan dövr çox mühüm hadisələrlə zəngindir. Təəssüf ki, xalqımız müstəqillik əldə etsə də, Azərbaycan Respublikasında siyasi-iqtisadi vəziyyət çox ağır idi. Köhnə sistemin dağılması, 70 ildən artıq bir müddətdə mövcud olan iqtisadi əlaqələrin tamamilə pozulması ölkədə böhran vəziyyəti yaratmışdı. Həmçinin respublikanın müstəqilliyinin möhkəmləndirilməsi yolunda atılan addımlar bir sıra maneələrlə qarşılaşırdı. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, ölkədə bir milyondan artıq qaçqın və məcburi köçkünün olması, 20%-dən artıq əzəli torpaqlarının zəbt olunması respublikada bütün sahələrə, o cümlədən sosial, iqtisadi sahəyə ağır zərbələr vururdu. Bu baxımdan maddi və mənəvi zərbənin təsirini hər bir ölkə vətəndaşı hiss edirdi. Ölkədə gedən bütün bu proseslər respublikanın şimal-şərq ərazilərini əhatə edən Quba-Xaçmaz regionuna xüsusilə, sosial, iqtisadi və mədəni cəhətdən təsirsiz ötüşməmişdir. O zaman Quba-Xaçmaz regionuna Xaçmaz, Quba, Qusar, Dəvəçi(indiki Şabran) inzibati rayonları daxil idi. 1992-ci ildə Siyəzənin Dəvəçi rayonundan ayrılması ilə regiona daxil olan rayonların sayı beş oldu. Müstəqilliyin bərpasının ilk illərində bu regionda da hər şeydən əvvəl əhalinin sosial vəziyyətinin aşağı olması, ən zəruri ərzaq mallarına olan gündəlik tələbatın ödənilməməsi acınacaqlı vəziyyətdən xəbər verirdi. Ölkədə mal qıtlığı yarandığı üçün bu regionda mövcud müəssisələrin əksəriyyəti inhisarçılığa meyllənmiş, bəziləri isə tamamilə fəaliyyətlərini dayandırmışdır. Bütün bunlar işsizliyin artması, əhalinin rifah halının kəskin şəkildə aşağı düşməsi ilə nəticələnirdi. Regiona daxil olan rayonların əmək kollektivləri öz imkanlarından çox aşağı səviyyədə istifadə etdiklərinə görə dövlət planlarını belə yerinə yetirə bilmirdilər. Respublikanın digər rayonlarında olduğu kimi bu rayonlarda da ən zəruri ərzaq malları, xüsusilə çörək və un qıtlığı hökm sürürdü. İstehsalatda ehtiyat hissələrinin çətin tapılması,

material çatışmazlığı, nəqliyyat çətinliyi və qiymətlərin sürətlə artması bütün sahələrə öz mənfi təsirini göstərirdi.

Ölkədə davamlı iqtisadi inkişafa nail olmaq üçün islahatların hazırlanıb həyata keçirilməsi, bütün respublika əhalisinin rifah halının yaxşılaşdırılması bu dövrdə mühüm şərt idi. Məhz 1993-cü ilin iyun ayında Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanın dövlətçilik tarixində yeni bir dövrün təməli qoyulmuş oldu. Onun həyata keçirdiyi zəruri tədbirlər nəticəsində tezliklə Azərbaycanın beynəlxalq aləmdə siyasi məğlubiyyətinin, iqtisadi tənəzzülünün, cəbhədə hərbi uğursuzluqlarının, ölkədə vətəndaş itaətsizliyinin qarşısı alındı və bütün sahələrdə tərəqqiyə yönəldilmiş quruculuq işlərinə başlanıldı. Tarixi faktlar da göstərir ki, regionda iqtisadi inkişafa Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin ölkədə yenidən hakimiyyətə gəlişindən sonra nail olunmuşdur. Azərbaycan Respublikasının ən çətin, dağılma təhlükəsi ilə üz-üzə qaldığı bir dövrdə hakimiyyətə gələn Ümummilli lider ilk günlərdən genişmiqyaslı islahatlara başladı. Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində Quba-Xaçmaz regionunda iqtisadi sabitliyin bərpa olunmasını təmin etdi, iqtisadiyyatın davamlı və dinamik inkişafına təkan verməklə əhalinin həyat şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdırdı.

Heydər Əliyev irsinin layiqli davamçısı, 2003-cü ilin oktyabr ayında Prezident seçilən İlham Əliyevin əsas hədəflərindən biri məhz regionların inkişaf etdirilməsi, rayonlarda yeni iş yerlərinin yaradılması və əhalinin rifah halının yüksəldilməsi olmuşdur. Prezident İlham Əliyevin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı(2004-2008-ci illər)” ilə Quba-Xaçmaz regionunun inkişafında yeni mərhələ başlamış, davamlı olaraq 2009-2013-cü illəri əhatə edən Regional İnkişaf Proqramının qəbul olunması burada dinamik inkişafı təmin etmişdir.

Azərbaycan Respublikasının Quba-Xaçmaz regionunda müstəqilliyin bərpasından 2013-cü ilə qədərki dövr ərzində çox mühüm müsbət dəyişikliklər əldə olunduğundan bu illər ərzində

regionda mövcud vəziyyəti xronoloji ardıcılıqla tədqiq etmək, burada sosial, iqtisadi və mədəni inkişaf prosesini izləməklə gələcək inkişaf perspektivlərini aşkarlamaq mühüm əhəmiyyət daşıyır. Məhz bu səbəbdən 1991-2013-cü ilədək dövrdə Quba-Xaçmaz regionunun sosial, iqtisadi və mədəni inkişafının öyrənilməsi çox böyük elmi aktuallıq kəsb edir.

Azərbaycan tarixşunaslığında Quba-Xaçmaz regionunun inkişafı problemi ilk dəfə bu dissertasiya işində xüsusi tədqiqat obyekti kimi götürülsə də, müəyyən məsələlərə müxtəlif əsərlərdə münasibət bildirilmişdir. İlk öncə onu qeyd etməliyik ki, tədqiq olunan problemlə bağlı bir sıra mühüm məlumatlar Ulu öndər Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir"[1] və Prezident İlham Əliyevin "İnkişaf məqsədimizdir"[2] çoxcildli əsərlərində öz əksini tapmışdır.

Tarix elmləri doktoru, professor Oqtay Sultanovun[3] XX əsrin sonlarında Azərbaycanın siyasi vəziyyətindən bəhs edən "80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə" əsərində ölkənin iqtisadi və sosial problemlərinə də toxunulmuş, geniş izahatlar verilmişdir. Müəllif sovet siyasi sisteminin süqutu, müstəqil Azərbaycan Respublikasının yaradılması və dövrün siyasi hadisələrinin həm iqtisadi, həm də sosial sahələrə təsirini ətraflı işıqlandırmışdır. Müstəqilliyin bərpasından keçən ilk illərdə respublikanın siyasi vəziyyəti, sosial-iqtisadi durumunun öyrənilməsi baxımından əsər olduqca böyük əhəmiyyət daşıyır. Əsərin adından da göründüyü kimi, burada Quba-Xaçmaz regionu xüsusi tədqiqat obyekti kimi seçilmədiyindən bu regionun sosial-iqtisadi durumuna toxunulmamışdır.

---

[1] Heydər Əliyev. Elektron sənədlər toplusu. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. http://heydaraliyev.preslib.az

[2] İlham Əliyev: electron külliyyat._İnkişaf - məqsədimizdir: [104 cilddə]. http://ilhamaliyev.preslib.az

[3] Sultanov, O.B. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. / O. Sultanov. – Bakı: Maarif, -1995. - 232 s.

Respublikada sosial-iqtisadi islahatların həyata keçirilməsi siyasətçi, filosof alim Ramiz Mehdiyevin[4] bir sıra əsərlərində ətraflı işıqlandırılmış, müstəqillik dövründə ölkənin inkişafı geniş şərh olunmuşdur. Həmin əsərlər Azərbaycan Respublikasının tarixinin öyrənilməsi, həmçinin bütün regionlarda inkişafa istiqamətlənmiş tədbirlərin həyata keçirilməsini izləməkdə müəyyən əhəmiyyətə malikdir.

Tədqiq olunan problemlə bağlı müəyyən faktlara görkəmli tarixçi alim Tahir Qaffarovun[5] əsərlərində XX əsrin 90-cı illərində Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, siyasi proseslər tarixilik baxımından dərindən açıqlanır, geniş izahatlar verilir. Müəllif ölkənin bütün regionlarında iqtisadi sabitliyin bərqərar olunmasında Heydər Əliyevin əvəzsiz rolunu göstərir. XX əsr Azərbaycan tarixinin müxtəlif problemlərini dərindən araşdıraraq tədqiq edən Tahir Qaffarovun bu və digər əsərlərində mühüm faktlara rast gəlinmişdir.

AMEA Tarix İnstitutu və Azərbaycan Tarixçiləri İctimai Birliyinin birgə nəşr etdirdiyi iki cildli Azərbaycan Respublikasının tarixi[6] kitabının ayrı ayrı fəsillərində tarixi şəxsiyyətlər Heydər Əliyev və İlham Əliyevin dövlətin sosial-iqtisadi inkişafı ilə əlaqədar verdiyi fərman və sərəncamlar, həyata keçirdiyi tədbirlər yer almışdır. Bu nəşrlər 1993-2013-cü illərdə ölkədə həyata keçirilən

---

[4] Mehdiyev, R.Ə. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi / R.Mehdiyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, -2001. -276 s.; Azərbaycan qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri / R.Mehdiyev. –Bakı: XXI-Yeni Nəşrlər Evi, - 2005. - 464 s.; Gələcəyin strategiyasını düşünərkən: modernləşmə xətti / R.Mehdiyev. – Bakı: Şərq-Qərb, -2008. - 215 s.

[5] Qaffarov, T.B. Azərbaycanın ən yeni tarixi / T.Qaffarov. – Bakı: Ciso Enterprise, -2005. -275s.

Yenə onun. Azərbaycan Respublikası 1991-2001. Əsrə bərabər on il / T.Qaffarov. – Bakı: Turan, - 2001. - 325s.

[6]Azərbaycan Respublikasının tarixi (1991-2003). 1-ci cild. Heydər Əliyev dövrü / -Bakı: AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Tarixçiləri İctimai Birliyi, -2016. - 704 s.; 2-ci cild. (2003-2016). İlham Əliyev dövrü / -Bakı: AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016. - 716 s.

genişmiqyaslı islahatların, müxtəlif İnkişaf Proqramlarının tətbiqi və əldə olunmuş inkişafyönümlü nəticələrin işıqlandırılması baxımından olduqca əhəmiyyətlidir. Lakin, bu kitablarda da regionlara, o cümlədən Quba-Xaçmaz regionuna dair konkret faktlara rast gəlinmir.

Tarixçi alimlər Qafar Cəbiyev və Səttar Allahverdiyevin birgə yazdıqları Azərbaycan tarixi[7] kitabının XXVI-XXVIII fəsilləri ölkədə müstəqilliyin bərpası, onun möhkəmləndirilməsi, dövlətin iqtisadi inkişaf xüsusiyyətləri, həmçinin XXI əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi inkişaf dinamikası təhlili baxımından maraqlıdır. Kitab Azərbaycanın ən qədim dövrlərindən başlayaraq bu günədək olan tarixini əhatə etdiyindən, Quba-Xaçmaz regionunun sosial-iqtisadi durumuna xüsusi toxunulmamışdır.

Tarix üzrə fəlsəfə doktoru Alı Balayevin "Azərbaycanda ictimai-iqtisadi və siyasi vəziyyət(1985-1995)" əsərində ölkədə müstəqilliyin bərpasından sonrakı ilk illərdə dövlətin ağır durumu, daha sonra ölkə iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində atılan addımlar, həyata keçirilən tədbirlər geniş tədqiq edilmişdir. Müəllif göstərilən əsərdə bütün ölkə üzrə sosial-iqtisadi prosesləri təhlil edir, geniş şərhlər verir. Lakin burada da tədqiqatçının qarşısına qoyduğu məqsəd başqa olduğundan həmin proseslərin ölkənin şimal-şərq regionuna təsiri məsələləri araşdırılmamışdır.

Tarix elmləri doktoru, professor Fəxrəddin Nərimanoğlunun[8] "Azərbaycanın şimal qapısı-Xaçmaz" adlı əsəri bu baxımdan diqqət cəlb edir. Xaçmaz rayonuna həsr olunmuş bu əsərin bir bölməsində rayonda son illərdə aparılmış quruculuq işlərinin nəticəsi olaraq infrastrukturun inkişafından söz açılır. Buradan da göründüyü kimi, əsər yalnız Xaçmaz rayonunu əhatə edir, regionun digər əraziləri öyrənilməmişdir.

Tədqiq olunan problemlə bağlı müəyyən məsələlər Zaur Səlimovun "Azərbaycan Respublikasında regionların inkişaf

---

[7] Cəbiyev, Q.C., Allahverdiyev, S.Ş. Azərbaycan tarixi /Q.Cəbiyev. – Bakı: Elm və Təhsil, -2017. - 621 s.

[8] Nərimanoğlu, F.M. Azərbaycanın şimal qapısı-Xaçmaz / F. Məmmədov. - Bakı,:Nurlan, - 2006. - 128 s.

strategiyası” adlı tarix üzrə fəlsəfə doktorluğu dissertasiya işində öz əksini tapmışdır. Əsərdə regionların inkişafı üzrə birinci Dövlət Proqramı geniş tədqiq olunsa da, Quba-Xaçmaz regionu üzrə konkret faktlara rast gəlinmir.

Heydər Əliyevin respublikaya rəhbərliyi illərinə aid faktların zənginliyi baxımından görkəmli tarixçi alim Yaqub Mahmudovun “Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti” [9] adlı əsəri mühüm əhəmiyyət daşıyır. Müəllif bu əsərdə Heydər Əliyevin ölkənin ən çətin və böhranlı günlərində xilaskar missiyası ilə hakimiyyətə gəlişini faktlarla işıqlandırır, həyata keçirdiyi islahatların mahiyyətini tarixilik baxımından geniş izahatlar verməklə açır.

Heydər Əliyevin ölkənin iqtisadi-sosial durumunun yaxşılaşdırılması və davamlı inkişaf strategiyasının həyata keçirilməsi istiqamətində gördüyü işlər tarix elmləri doktoru İradə Hüseynovanın[10] əsərlərində də tədqiq olunmuşdur. Aparılan bu tədqiqatların xronoloji çərçivəsi əsasən Heydər Əliyevin fəaliyyəti dövrünün öyrənilməsinə istiqamətləndiyi üçün sonrakı illərin, həmçinin ayrı-ayrı regionların sosial-iqtisadi həyatı nəzərdən keçirilmir. İradə Hüseynova əsərlərində regionların inkişafı strategiyası probleminə toxunsa da, bu onun tədqiqat obyekti olmadığı üçün həmin əsərlərdə regional inkişafla bağlı konkret faktlar verilməmişdir.

Göstərilən müəlliflərin əsərlərindən də göründüyü kimi, Heydər Əliyevin ölkə iqtisadiyyatının, sosial durumunun yüksəldilməsi, əldə olunan nəticələr, onların təhlili Azərbaycan tarix elminin görkəmli nümayəndələri, ayrı-ayrı tarixçi alimlər tərəfindən aparılmış, sanballı əsərlər ortaya qoyulmuşdur.

---

[9] Mahmudov, Y. M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti /Y.Mahmudov. – Bakı: Təhsil, -2003.- 322s.

[10] Hüseynova, İ.M. Dövlətçilik naminə / İ. Hüseynova, - Bakı: BDU, -2001. -300s.; Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.Hüseynova, - Bakı: Təhsil, -2004. -472s.; Müstəqilliyimizin təminatçısı / İ.Hüseynova, - Bakı: Təhsil, -2003. -504s.; Гейдар Алиев – от политического руководителся к общенационалъному лидеру/ И.Гусейнова,- Баку: Тахсил, -2005. - 501с.

Azərbaycan tarixi 7 cildlik kitabın VII cildində[11] ölkənin məhz dövlət müstəqilliyinin bərpasından sonrakı sosial iqtisadi durumu qısa da olsa öz əksini tapmışdır.

İqtisad elmləri doktoru, professor Ziyad Səmədzadənin[12], şair-dramaturq, incəsənət xadimi Hidayət Orucovun[13], tədqiqatçı Nizami Rəhmanlının[14] bir sıra əsərlərində, həmçinin Böyük İqtisadi Ensiklopediya[15], Heydər Əliyev və dövlətin aqrar siyasəti[16] kimi kitablarda araşdırdığımız mövzunun müəyyən məsələlərinə toxunulmuşdur.

Aparılan tədqiqat işi ilə bu və ya digər səviyyədə bağlı olan əsərlərin təhlili zamanı bəlli olur ki, ayrı-ayrı müəlliflərin əsərlərində, müxtəlif tədqiqat işlərində tədqiq olunan problemə dair müəyyən faktlara rast gəlinsə də, mövzunun müxtəlif məsələlərinə münasibət bildirilsə də, o sistemli və kompleks şəkildə tədqiq olunmamışdır. Məhz buna görə də 1991-ci ildən 2013-cü ilədək Azərbaycan Respublikasının Quba-Xaçmaz regionunun sosial, iqtisadi və mədəni inkişafı problemini tarixi aspektdən kompleks şəkildə araşdırılması elmi aktuallıq kəsb edir.

Dissertasiya işi çoxsaylı mənbələr əsasında hazırlanmışdır. İstifadə olunan mənbələr arasında Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionun sosial-iqtisadi inkişafına dair çıxışları, müsahibələri, fərman və

---

[11] Azərbaycan tarixi [7 cilddə] / Məs.red. T.Qaffarov.- Bakı: Elm, -c.7: - 2008. - 608 s.

[12] Самедзаде, З. А. Этапы болышого пути. Экономика Азербайджана за полвека, ее реалии и перспективы / З. Самедзаде, - Баку: Нурлар, - 2004. - 932 с.

[13] Orucov, H.X. Azərbaycanda din: ən qədim dövrdən bu günədək / H.Orucov, - Bakı:İdrak İB, -2012. – 428 s.

[14] Rəhmanlı, N. Çıraqqala yurdunun övladları / N.Rəhmanlı, - Bakı: Şuşa, - 2002. - 352s.

[15] Böyük İqtisadi Ensiklopediya [5 cilddə] // Baş red. Z.Səmədzadə, - Bakı: Şərq-Qərb, - 2012. – c.2, - 632 s.

[16] Heydər Əliyev və dövlətin aqrar siyasəti / Baş red. D.Lətifov, - Bakı: Gənclik, - 2003. -776 s.

sərəncamları araşdırılan problemin hüquqi-normativ müstəvidə tədqiq olunmasına yardım göstərir. Tədqiq olunan problemlə bağlı bir çox məlumatlar Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin əsərlərində çap olunmuşdur ki, bunun da tədqiqatda əhəmiyyəti böyükdür.

Mənbələr içərisində arxiv materialları üstünlük təşkil edir. Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin, idarənin Quba-Xaçmaz regionuna daxil olan rayon (Quba, Xaçmaz, Qusar, Şabran və Siyəzən) filiallarındakı arxiv materialları, müvafiq rayon icra hakimiyyətlərinin sosial-iqtisadi və mədəni inkişafa dair illik hesabatları dissertasiyanın mənbə bazasını təşkil edir.

Dövlət Statistika Komitəsinin, rayonlar üzrə statistika şöbələrinin və Regional İnkişaf Mərkəzinin məlumatları, regionların inkişafı üzrə qəbul olunmuş Dövlət Proqramları və bu Proqramlar çərçivəsində region üzrə tərtib olunan Tədbirlər Planlarından dissertasiya işində geniş istifadə olunmuşdur.

Respublikada, eləcə də Quba-Xaçmaz regionunun rayonlarında nəşr olunan bir sıra qəzet və jurnalların, o cümlədən İqtisadi İnkişaf Nazirliyinin nəşr etdirdiyi "Quba-Xaçmaz iqtisadi rayonu: Uğurlu regional siyasətin nəticələri", "Xalq nəzarəti", "Zaman", "Xaçmaz 2003-2013:Hədəflər, İnkişaf, Nəticələr", "Quba 2003-2013:Hədəflər, İnkişaf, Nəticələr", "Qusar 2003-2013:Hədəflər, İnkişaf, Nəticələr", "Siyəzən 2003-2013:Hədəflər, İnkişaf, Nəticələr", "Şabran 2003-2013:Hədəflər, İnkişaf, Nəticələr" jurnalları və "Azərbaycan", "Şəfəq", "Çıraq", "Şabran", "Quba" "Tərəqqi" qəzetlərindən tədqiqat prosesində istifadə olunmuşdur.

Qeyd olunan mənbələr tədqiqat işində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin təmin olunmasında, regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramlarında Quba-Xaçmaz regionuna dair nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi barədə konkret faktların əldə olunmasında xüsusi əhəmiyyətə malikdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti Quba-Xaçmaz regionudur. Predmeti isə bu regionun sosial, iqtsadi və mədəni inkişafıdır. Dissertasiyanın xronoloji çərçivəsi 1991-2013-cü illəri əhatə edir. Azərbaycan Respublikası 1991-ci ildən müstəqil

dövlət kimi fəaliyyət göstərdiyinə görə dissertasiyanın xronoloji çərçivəsinin başlanğıcı bu ildən götürülmüşdür.

Müstəqilliyin bərpasının ilk illərində Quba-Xaçmaz regionunda mövcud iqtisadi dağıntının və geriləmənin səbəblərini, regionun sosial durumuna, əhalinin həyat şəraitinə təsir edən amillər aşkarlanmışdır. Dahi şəxsiyyət Heydər Əliyevin regionun sosial, iqtisadi və mədəni inkişafına göstərdiyi qayğının nəticələri araşdırılmış, eləcə də 2004-2008 və 2009-2013-ü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına aid xüsusi Dövlət Proqramları qəbul edildiyindən, dissertasiyada həmin zaman çərçivəsində bu sahələrdə həyata keçirilən tədbirlər təhlil edilmişdir. Dissertasiya mövzusunu 2014-cü ildə götürdüyüm üçün tədqiqatın xronoloji çərçivəsinin sonu 2013-cü il hesab olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin aparılmasında məqsəd müstəqilliyin bərpa edildiyi vaxtdan 2013-cü ilə qədərki dövr ərzində Azərbaycan Respublikasının Quba-Xaçmaz regionunun sosial-iqtisadi inkişaf prosesini tarixi aspektdən kompleks şəkildə öyrənməkdir. Qarşıya qoyulan məqsədin təmin olunması bir sıra vəzifələrin həllini zəruri edir. Onlar aşağıdakılardır:

1. XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Respublikasının Quba-Xaçmaz regionunda yaranmış gərgin sosial-iqtisadi vəziyyətin səbəblərini müəyyən etmək;
2. Bazar iqtisadiyyatına keçid dövründə ölkədə aparılan sosial-iqtisadi islahatların qanunvericilik bazasının yaradılmasının mahiyyətini açmaq, islahatların Quba-Xaçmaz regionuna tətbiqinin, burada yeni təsərrüfatçılıq formalarının, özəl sektorun, həmçinin sahibkarlığın inkişaf etdirilməsində, yeni sənaye müəssisələrinin açılmasında dövlət himayəsinin tənzimedici rolunun əhəmiyyətini göstərmək;
3. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə apardıqları islahatların, həyata keçirdikləri inkişaf strategiyasının regionun inkişafına təsirini müəyyən etmək;

4. Regionların inkişafına dair təsdiq olunan Dövlət Proqramları ilə Quba-Xaçmaz regionunun tarazlı inkişafı arasındakı qarşılıqlı əlaqəni açmaq və qiymətləndirmək;
5. Quba-Xaçmaz regionunun hazırki durumunun məhz Heydər Əliyev siyasətinin davamının nəticəsi olduğunu əsaslandırmaq;
6. Regionun sosial-iqtisadi inkişafının təhlili əsasında bu ərazidə gələcək inkişafa dair təkliflər irəli sürmək;

**Tədqiqat metodları.** Dissertasiya işi yerinə yetirilərkən müqayisə, tarixilik, obyektivlik, təsnifat, təhlil və ümumiləşdirmə kimi tədqiqat metodlarından istifadə olunmuşdur. Məhz bu səbəbdən də problemin düzgün, hərtərəfli və elmi surətdə öyrənilməsi təmin olunmuşdur. Dissertasiya işi yazılarkən regionun sosial-iqtisadi həyatı ilə bağlı çoxsaylı faktlara müraciət olunduğuna görə statistik metoddan da istifadə olunmuşdur. Bu da tədqiq edilən problem ilə bağlı ayrı-ayrı rayonların statistik göstəriciləri əsasında bütövlükdə regionun inkişaf dinamikası haqqında ümumiləşdirmə aparmağa yardım edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəlar çıxarılmışdır:

- Quba-Xaçmaz regionu Azərbaycan Respublikasının gəlirlə yaşayan bir regionu olaraq əsasən meyvə-tərəvəz sənayesi, kənd təsərrüfatı və turizm sahələri üzrə ixtisaslaşmışdır;
- 1991-1993-cü illərdə Ermənistanın təcavüzü və ölkə daxilindəki qeyri-stabillik, hakimiyyət uğrunda mübarizə və hakimiyyət səriştəsizliyi nəinki sosial-iqtisadi inkişafa təkan verdi, hətta qarşısını aldı;
- 1993-cü ilin iyun ayında Heydər Əliyevin hakimiyyətə qayıdışı və davamlı sosial-iqtisadi siyasətin həyata keçirilməsi ölkənin şimal-şərq regionunda da inkişafa şərait yaratdı və əhalinin güzəranının yaxşılaşdırılması təmin olundu;
- İctimai mülkiyyətdən xüsusi mülkiyyətə keçidlə regionda azad iqtisadiyyatın bünövrəsi yaradıldı, özəl və dövlət təsərrüfatlarının istehsal çəkisi birincinin xeyrinə dəyişdi;

- Azərbaycanda qəbul olunmuş özəlləşdirmə proqramları respublikanın şimal-şərq rayonlarında da özünü göstərdi. Regionun kənd təsərrüfatı və sənayesi yenidən quruldu, istehsalda artım baş verdi. Yerli və xarici investorların regiona cəlb olunması ilə fəaliyyətini bərpa etmiş, həmçinin yeni yaradılmış müəssisələr hesabına çoxlu iş yerləri açıldı ki, bu da əhalinin məşğulluq səviyyəsinin, rifah halının yüksəldilməsinə imkan yaratdı;
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionun inkişafı ilə bağlı imzaladığı sərəncamlar, onların icrası vəziyyəti ilə birbaşa maraqlanmaq məqsədilə rayonlara etdiyi səfərləri burada dinamik inkişafa yol açdı. Regionda bütün infrastruktur sahələr dünyada qəbul edilmiş inkişaf proqramlarına uyğunlaşdırıldı, qeyri-neft sektorunun inkişafı daha da sürətləndi;
- Regionun rayonlarında mədəni sahədə də inkişaf baş verdi, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması, kütləvi mədəni tədbirlərin təşkil edilməsi və həyata keçirilməsi genişləndirildi, tarixi abidələrin qorunması, onların restavrasiyası prosesinə diqqət artırıldı;
- Respublikanın gələcək inkişaf prioritetlərini müəyyən edən, regional inkişafla bağlı olan Dövlət Proqramlarının tətbiqi bu regionda dayanıqlı inkişafı təmin etdi.
- Regionda beynəlxalq turizmin inkişafı Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafına yardım edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi ilk növbədə Azərbaycan Respublikasının Quba-Xaçmaz regionunun 1991-2013-cü illər ərzində sosial, iqtisadi inkişafı problemi tarixşunaslıqda ilk olaraq müstəqil tədqiqat problemi kimi araşdırılmasındadır. Eyni zamanda tədqiqat problemlə bağlı ilk dəfə bir sıra elmi yeniliklərin əldə olunmasına gətirib çıxarmışdır ki, həmin elmi yenilikləri aşağıdakı kimi sıralaya bilərik:

1. Bir çox yeni mənbələr, o cümlədən arxiv materialları araşdırılmış və elmi dövriyyəyə cəlb edilmişdir;

2. 1991-2013-cü illərdə ölkənin Quba-Xaçmaz regionunda kənd təsərrüfatı və sənayenin ilk öncə tənəzzül, sonra durğunluq, daha sonra isə dinamik inkişaf keçirdiyi müəyyənləşmişdir;
3. Regionda bir sıra islahatların(özəlləşdirmə, torpaq, sahibkarlığın inkişafı və s.) həyata keçirilməsi ilə əhalinin real bazar şəraitinə uyğunlaşması, fermer və sahibkarlar sinfinin formalaşması arasındakı əlaqələr tədqiq olunmuşdur;
4. Regionda yaradılan özəl və dövlət təsərrüfatları arasındakı fərq müəyyən edilmiş, özəl təsərrüfat formalarının daha çox əhəmiyyət daşıdığı vurğulanmışdır;
5. Ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları Quba-Xaçmaz regionunun dinamik inkişafına səbəb olmuşdur. Tarixi şəxsiyyətlər Heydər Əliyev və İlham Əliyevin ölkənin davamlı inkişafı yolunda apardığı islahatların bu regiona təsiri məsələsinə spesifik tarixi yanaşma müəyyən olunmuş və Azərbaycan tarixşunaslığına daxil edilmişdir;
6. Azərbaycanın şimal-şərq rayonlarındakı müasir durumun məhz Heydər Əliyev siyasətinin nəticəsi olduğu müəyyən olunmuşdur;
7. Regional sosial-iqtisadi inkişaf strategiyasının regiona daxil olan hər rayon üçün tədbirlər planı şəklində tətbiqi dövlət mənafeyi baxımında qiymətləndirilmişdir;
8. Bu regiona daxil olan ayrı-ayrı rayonların sosial-iqtisadi inkişafı üzrə araşdırılma aparılmış, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində 5 rayonun hər birində infastrukturun tamamilə yeniləndiyi vurğulanmışdır.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işində istifadə olunan faktlar, elmi yeniliklər, ümumiləşdirmələrdən Azərbaycanın müasir tarixinə, regionların eləcə də Quba-Xaçmaz regionunun tarixinə dair əsərlər yazılarkən istifadə edilə bilər. Dissertasiya materiallarından ali məktəblərdə Azərbaycan tarixi kursunda mühazirə materialı kimi də istifadə etmək olar. Tədqiqat işinin ayrı-ayrı fəsilləri üzrə aparılan araşdırmalar, dissertasiyada

əldə edilən elmi ümumiləşdirmələr praktik əhəmiyyət daşıyır. Dissertasiyada verilən təkliflər gələcək inkişaf proqramlarında istifadə oluna bilər. Bütün tarix və iqtisadiyyatla maraqlanan hər bir şəxs tədqiqat işindən səmərə götürə bilər. Regiona daxil olan rayonların inkişaf xüsusiyyətlərini özündə birləşdirən bu tədqiqat işindən dövlət siyasətinə dair araşdırmalarda istifadə oluna bilər. Bu tədqiqat işi Azərbaycanın digər regionlarının da inkişafı probleminin araşdırılmasında müəyyən qədər istiqamət verə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın elmi yenilikləri və əsas elmi nəticələri müəllifin çap etdirdiyi məqalələrdə öz əksini tapmışdır. Bundan əlavə müəllif dissertasiya işinin ayrı-ayrı məsələlərinə dair məruzələrlə respublika və beynəlxalq əhəmiyyətli konfranslarda da çıxışlar etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Tarix və onun tədrisi metodikası" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi struktur etibarı ilə giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın titul səhifəsi – 372, Mündəricat – 1,696, Girişi - 27,862, I fəsli – 49,174, II fəsli – 81,376, III fəsli – 95,932, Nəticə - 23,595, İstifadə olunmuş ədəbiyyat siyahısı – 32,479 işarə olmaqla, ümumi həcmi 166 səhifə və təxminən 280,007 işarədən(cədvəllər və ədəbiyyat siyahısı istisna edilməklə) ibarətdir.

## II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı nəzərə çatdırılır, işlənmə dərəcəsi araşdırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri açıqlanır, tədqiqat metodları göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar və tədqiqatın elmi yeniliyi əsaslandırılır, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələri

haqqında ayrılıqda, həmçinin dissertasiyanın ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **“Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının ilk illərində Quba-Xaçmaz regionunda sosial-iqtisadi durum”** adlanır. Həmin fəslin **“SSRİ-nin süqutu ilə əlaqədar Azərbaycanda baş verən proseslərin Quba-Xaçmaz regionunun sosial-iqtisadi durumuna ağır təsiri”** adlı (1.1) yarımfəslində SSRİ-nin dağılması ilə 70 ildən artıq mövcud olan iqtisadi əlaqələrin pozulmasından, ölkədə baş verən bu proseslərin Quba-Xaçmaz regionuna təsirindən bəhs edilir. Məlumdur ki, Sovet İttifaqına daxil olan respublikalar bilavasitə bir-biri ilə iqtisadi cəhətdən bağlı olmuş, sanki vahid bir orqanizmi təşkil edərək fəaliyyət göstərirdilər. Belə ki, birinin iştirakı olmadan digərinin iqtisadiyyatı lazımi qaydada inkişaf edə bilmirdi. Sovet siyasi quruluşunun dağılması ilə əlqədar yaranmış keçid dövrünün mövcud problemləri Azərbaycan respublikasına, o cümlədən ölkənin şimal-şərq rayonlarının sosial, iqtisadi durumuna öz təsirini göstərmiş, hətta bu bir müddət qalıcı xüsusiyyətini də özündə saxlamışdır. Regionun iqtisadiyyatının bütün sahələrində çox ciddi geriləmələr baş verirdi. Rayonlarda təsərrüfatlar, o cümlədən alma bağları, üzüm plantasiyaları, müxtəlif meyvə, tərəvəz sahələri büsbütün məhv olmaq üzrə idi. İstehsal həcminin azalması və maliyyə göstəricilərinin yerinə yetirilməməsi rayonlarda büdcə kəsirinin yaranmasına səbəb olurdu. Bütün bunlar isə əhalinin güzəranına mənfi təsir göstərən amillərdən idi. Məhz belə bir durumda ölkədə baş verən proseslərin Quba-Xaçmaz regionuna təsiri xüsusiyyətləri tədqiq edilmiş, ümumiləşdirilmiş və nəticə çıxarılmışdır.[17]

I fəslin **“Ümummilli lider Heydər Əliyevin regionun sosial-iqtisadi və mədəni inkişafına göstərdiyi qayğı”** adlı II yarımfəslində(1.2) Azərbaycan Respublikasının son dərəcə ağır və acınacaqlı bir durumunda, dövlət müstəqilliyinin itirilməsi təhlükəsi

---

[17] Nərimanlı, Ə.E. SSRİ-nin dağılmasının Quba-Xaçmaz regionunun iqtisadi vəziyyətinə təsiri // - Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2018. -c. 69, -s.70-79.

ərəfəsində, ölkədə milli və vətəndaş qarşıdurmasının başlandığı, xalqın olum və ölüm dilemması ilə üzləşdiyi bir vaxtda xalqın istəyi və təkidli tələbi ilə yenidən hakimiyyətə gələn dünya şöhrətli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin ölkədə həyata keçirdiyi islahatların Quba-Xaçmaz regionuna təsiri mühüm əhəmiyyət daşıyır. Ölkə başçısının əsas prioritetlərindən biri aqrar sahəni böhrandan qurtarmaq, regionlarda təsərrüfatları inkişaf etdirmək, iqtisadiyyatı dirçəltmək idi.[18] Məhz bu siyasətin həyata keçirilməsi çox qısa zaman ərzində ölkənin şimal-şərq rayonlarında da əsaslı keyfiyyət dəyişikliklərinə səbəb oldu. Qazanılmış nailiyyətlər dövlətin inkişaf strategiyasının əsasını təşkil etməklə, şimal-şərq regionunun da bütün rayonlarında canlanma yaratdı. Aztəminatlı ailələrə, əlil və ahıllara verilən müavinətlərin artırılması, sahibkarlığa kömək, yeni təsərrüfat sahələrinin yaradılması, iş yerlərinin açılması və s. kimi amillər dövlət siyasətinin bariz nümunəsi kimi qiymətləndirilmişdir.[19] Dövlət başçısının birbaşa diqqət və nəzarəti ilə ölkənin bazar iqtisadiyyatı yolu ilə irəliləməsinin bu regiona təsiri, bazar iqtisadiyyatına keçid məsələləri ümumiləşdirilmiş və nəticə çıxarılmışdır.[20]

Dissertasiyanın II fəsli "**XX əsrin sonu-XXI əsrin ilk illərində regionun sosial-iqtisadi vəziyyətininin inkişafına yönəlmiş tədbirlər"** adlanır. Burada 1993-cü ildən 2003-cü ilədək olan dövrdə Quba-Xaçmaz regionunda həm sosial, həmçinin iqtisadi sahədə vəziyyətin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər hərtərəfli təhlil edilmiş, həm sənaye, həm aqrar sahədə, həmçinin sosial və

---

[18] Heydər Əliyev və dövlətin aqrar siyasəti: /tərt.ed. D.Lətifov – Bakı: Gənclik, - 2003.- s.7.

[19] Nərimanlı, Ə.E. Ümummilli lider Heydər Əliyevin Quba-Xaçmaz regionunun sosial-iqtisadi inkişafina göstərdiyi qayğı // - Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2018. –c. 73, - s.146-154.

[20] Nərimanlı, Ə. E., Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Quba-Xaçmaz regionunun sosial-iqtisadi inkişafina göstərdiyi qayğı // "Strateji iqtisadi islahatlar: qabaqlayıcı vergi siyasəti" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransın materialları. – Bakı: AMEA İqtisadiyyat İnstitutu. – 2017. – s. 187-191.

mədəni sahələrdə görülən işlərin məqsəd və mahiyyəti açıqlanmışdır.[21]

II fəslin **"Azərbaycanda qəbul olunmuş "özəlləşdirmə" proqramlarının regionda həyata keçirilməsi və onun nəticələri"** (2.1) adlanan yarımfəsildə özəlləşdirmə proqramları çərçivəsində regionda həyata keçirilən tədbirlər və onların nəticələri tədqiq olunmuşdur. Müstəqil Azərbaycan Respublikasının inkişafı, onun dünya bazarında mövqeyinin möhkəmləndirilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və maddi nemətlər bolluğunun yaradılması Heydər Əliyevin apardığı siyasətdə prioritet hesab olunurdu. Mövcud mülkiyyət formalarının dəyişdirilməsi, sərbəst rəqabətə və xüsusi mülkiyyət prinsiplərinə əsaslanan, öz-özünü tənzimləyən bazar münasibətlərinin yaradılması dövrün ən aktual məsələlərindən idi. Bunu respublikada aqrar islahatların aparılması və dövlət mülkiyyətinin özəlləşdirilməsi sahəsində qəbul edilən proqram və qərarlardan da aydın görmək olur. Regionda özəlləşdirmənin həyata keçirilməsi nəticəsində təsərrüfat subyektləri üçün xüsusi mülkiyyət və sərbəst rəqabət əsasında bazar iqtisadiyyatı mühitinin formalaşdığı, xalq təsərrüfatı strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən qurulması əsaslandırılmışdır. Ərazidə çoxlu sayda istifadə olunmamış ehtiyatların hərəkətə gətirilərək iqtisadi prosesə daxil edilməsi, daha çox məhsul bolluğuna nail olunması və əhalinin ümumi həyat səviyyəsinin yüksəlişinə şərait yarandığı bu yarımfəsildən məlum olur.[22]

Həmin fəslin **"Quba-Xaçmaz regionunda fermer təsərrüfatlarının yaradılması və onların inkişafı"** adlı yarımfəslində(2.2) respublikada aqrar islahatların hüquqi bazasının

---

[21]Yenə orada.

[22] Nərimanlı, Ə.E. Quba-Xaçmaz regionunda Aqrar Islahatlar və özəlləşdirmənin həyata keçirilməsi // "Müasir dünyada inteqrasiya və elmin aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları. -Lənkəran: Lənkəran Dövlət Universiteti. – 2017. – s.84-85.

yaradılması[23], regionda bu islahatların həyata keçirilməsi ilə fermer təsərrüfatlarının yaradılması, onların hansı dərəcədə özlərini doğrultması və onların problemləri araşdırılaraq tədqiq olunmuşdur. Fermer təsərrüfatı sərbəst fəaliyyət göstərən hüquqi təsərrüfat, yeni sahibkarlıq forması olaraq bu regionda özünü tam doğrultmadı. Çünki yaradılmış təsərrüfatlar kiçik və həddindən artıq çoxsaylı xarakter almışdı. Hesab edirik ki, əgər bir neçə fermer təsərrüfatı birləşərək iri təsərrüfatlar yaratsaydı, o halda inkişafı görə bilərdik, nəinki kiçik və çoxlu sayda fermer təsərrüfatlarındakı inkişafı. Regionda isə iri fermer təsərrüfatları sayla sayılacaq qədər az idi.

II fəslin **“Regionun rayonlarında infrastrukturun, sənaye müəssisələrinin, nəqliyyatın və mədəniyyətin inkişafı”** (2.3) adlı III yarımfəslində isə regiona daxil olan hər bir rayonda infrastrukturun, sənayenin, nəqliyyatın və mədəniyyətin inkişafı geniş təhlil olunmuş, regionda gedən sürətli inkişafın tarixi şəxsiyyət Heydər Əliyevin göstərdiyi diqqət və qayğının nəticəsi olması açıqlanmışdır.[24] Bu bir faktdır ki, XX əsrin sonlarında Heydər Əliyev yenidən Azərbaycanda rəhbərliyə gəldikdən sonra müstəqil respublikanın bir hissəsi kimi şimal-şərq regionunda da yeni inkişaf mərhələsi başlamış, ölkədə aparılan çoxsahəli islahatlar nəticəsində Quba-Xaçmaz regionunda mövcud potensialdan səmərəli istifadə edilməklə istehsal müəssisələrinin fəaliyyəti bərpa olunmuş və daha da genişləndirilmişdir. Yeni istehsal müəssisələri yaradılmış və məhsul çeşidi xeyli çoxalmışdır. İxrac yönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsi, məşğulluğun artırılması və regiona daxil olan bütün rayonların iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi istiqamətində uğurlar əldə edilmişdir. Bu regionda azad

---

[23] Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi-Normativ hüquqi aktların vahid internet elektron bazası. Torpaq İslahatı haqqında Azərbaycan Respublikasında Qanunu, 155-IQ. https://e-qanun.az/framework/4207

[24] Нариманлы, А. Е. Об особенностя политики Азербайджанского руководства по развитию регионов страны // -Киев: Национальна Академія Наук Украіни. Институт сходознавства им. Фюкримського XXII сходознавчи читання А.Кримськогом -2018. Зм.62-63.

sahibkarlıq mühitinin formalaşdırılması nəticəsində fərdi sahibkarlıq təsərrüfatçılıq formasının yaranmasına təkan vermiş, sənayedə qeyri-dövlət sektorunun payı artmışdır. Sənayedə işgüzar fəallığın artması ilə ayrı-ayrı sənaye məhsullarının həcmi də çoxalırdı. Regionun mədəni inkişafı istiqamətində həyata keçirilən tədbirlər sayəsində istər ümumtəhsil müəssisələrində, istərsə də mədəniyyət ocaqlarında inkişafa doğru irəliləyiş əldə olunmuşdur.

Dissertasiyanın **"2004-2013-cü illərdə Quba-Xaçmaz regionunun sosial-iqtisadi və mədəni inkişafı"** adlı III fəslində 2004-2013-cü illər ərzində regionun sosial-iqtisadi və mədəni inkişafında dövlət qayğısının mühüm əhəmiyyəti işıqlandırılmışdır.[25]

Bu fəslin **"Quba-Xaçmaz regionunun davamlı inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamların rolu"** adlanan (3.1) birinci yarımfəslində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Quba-Xaçmaz regionuna dair verdiyi sərəncamların[26] hərtərəfli inkişafa şərait yaratdığı aşkarlanmışdır.[27] Bütün regionların tarazlı inkişafının təmin edilməsi, yeni iş yerlərinin yaradılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluğun azaldılması prinsipini rəhbər tutan ölkə başçısı regionların davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə ardıcıl surətdə Dövlət Proqramları[28] qəbul edib, sərəncamlar imzalamışdır. Verilən sərəncamlardan irəli gələn məsələlərin həyata keçirildiyi müddətdə görülmüş işlərlə yaxından

---

[25] Нариманлы, А. Е. Рекреация и туризм в контексте развития несырьевой экономики Азербайджана: по материалам Губа-Хачмазского региона 2004-2012 г г // - Москва: -2019, Современная научная мысль (1),- с.164-169.

[26] "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://e-qanun.az/framework/1392

[27] Nərimanlı, Ə.E. Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin Quba rayonunun inkişafına göstərdiyi qayğı // Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransının materialları. -Bakı:Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. -2016. –s.503-505.

[28] "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının(2004-2008-ci illər)" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://e-qanun.az/framework/4797

tanış olmaq üçün Prezident İlham Əliyev regiona daxil olan inzibati rayonlara mütəmadi olaraq səfərlər edir, əhalini narahat edən problemlərin həlli ilə bağlı yerindəcə göstərişlərini verirdi.[29] Prezidentin səfərləri dövlət başçısı ilə əhali arasında birliyi daha da möhkəmləndirməklə yanaşı, həm də işlərin sürətlə həyata keçirilməsinə güclü təkan verirdi.

Aparılan tədqiqat nəticəsində aydın olur ki, 2004-2013-cü illərdə ölkə Prezidenti İlham Əliyevin regionların inkişafına dair qəbul etdiyi Dövlət Proqramları, eləcə də Quba-Xaçmaz regionuna daxil olan 5 rayonun hər birinin ayrı-ayrılıqda sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair verdiyi sərəncamlar öz müsbət nəticələrini vermişdir. Həyata keçirilmiş tədbirlər nəticəsində yeni istehsal müəssisələri yaradılmış, infrastruktur inkişaf etmiş, iqtisadiyyatın bütün sahələrində artım əldə olunmuşdur. Yeni istehsal müəssisələrinin yaradılması, tikinti-abadlıq işlərinin artırılması, istirahət mərkəzlərinin təşkili və digər amillərin təsirindən regionda 100-lərlə daimi yeni iş yerləri açılmış, məşğulluq səviyyəsi artmış, əhalinin iş yerləri ilə təmin olunmasına şərait yaradılmışdır. Beləliklə, bütün bunlar region əhalisinin güzəranının yüksəldilməsinə təkan vermişdir.

Dissertasiyanın **“Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının qəbulu və bu Proqramların regionun sosial-iqtisadi inkişafına təsiri”** adlı (3.2) II yarımfəslində ölkə başçısının göstərdiyi diqqətin və regionların inkişafı Proqramları[30] çərçivəsində bu regionda həyata keçirilmiş tədbirlərin mahiyyəti açıqlanmışdır.[31]

---

“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://e-qanun.az/framework/16721

[30] Uğurlu regional siyasətin nəticələri.Quba-Xaçmaz iqtisadi rayonu / Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirliyi / - 2013. - s.27-31.

[31] Nərimanlı, Ə.E. “Regionların İnkişafı Proqramı” çərçivəsində Quba-Xaçmaz regionunun sosial-iqtisadi inkişafı // “Müasir elmin aktual problemləri” respublika elmi-praktik konfransının materialları.- Lənkəran: Lənkəran Dövlət Universiteti. - 2016.- s.168-169.

Nəhayət, sonuncu fəslin **“2004-2013-cü illərdə regionun mədəni inkişafı”** adlı (3.3) III yarımfəsildə isə bu illər ərzində regionda mədəni quruculuq və mədəni inkişaf istiqamətində aparılan işlər,[32] görülən tədbirlər öz əksini tapmışdır.[33]

2004-2013-cü illərdə Quba-Xaçmaz regionunda mədəniyyətin inkişafı istiqamətində Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi tədbirlərin, layihələrin məqsədyönlülüyü, ardıcıllığı, operativ gerçəkliyə söykənməsi və bunun ölkənin milli mənafelərini əks etdirməsi regionun hər bir vətəndaşında gələcəyə böyük inam hissi yaratmışdır. Quba-Xaçmaz regionunun mədəniyyət ocaqlarının, monumental tarixi abidələrin müasir standartlara uyğun şəkildə təmir və bərpa olunması dövlət siyasətinin bariz nümunəsidir. Tarixi minilliklərlə ölçülən milli musiqimizin, xalq çalğı alətlərimizin, muğam sənətimizin inkişafı regionda mədəni inkişafa daha çox şərait yaradırdı. Bütün bunlar deməyə əsas verir ki, regionda bundan sonra da mədəniyyətin inkişafının miqyası daha da genişlənəcək və davamlı olacaqdır.

Dissertasiya işinin **“Nəticə”** hissəsində hər üç fəsildə verilmiş məsələlərə yekun vurulur, tədqiqat işinə dair təklif və tövsiyyələr verilir.

Aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlmək olur ki, Azərbaycan xalqının Ümummilli lideri, Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı ölkə başçısı İlham Əliyev çox uğurla davam etdirmiş, təkcə Quba-Xaçmaz regionunda deyil, bütün respublikada davamlı inkişafı təmin etmişdir. Yuxarıda qeyd olunduğu kimi infrastrukturun inkişafı, yeni iş yerlərinin yaradılması Azərbaycanın şimal rayonlarında da

---

[32] Nərimanlı, Ə.E. 2003-2013-cü illərdə Quba rayonunda sosial-iqtisadi inkişaf // - Bakı: Pedaqoji Universitet Xəbərləri, - 2015. № 3, - s. 70-72.

[33] Nərimanlı, Ə.E. Quba-Xaçmaz regionunda “Regionların İnkişafı Dövlət Proqramı” çərçivəsində sosial-iqtisadi inkişafın sürətləndirilməsi(2004-2008) // - Bakı: Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, -2018. № 3, -s.206-209.

əhalinin rahat şəraitdə yaşamasına, iş yeri ilə təmin olunmasına, ümumiyyətlə bu regionda həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxarmışdır. 1991-ci ildən 2013-cü ilədək regionda baş verən proseslərin, aparılan genişmiqyaslı islahatların, tətbiq olunan yeniliklərin təhlili belə deməyə əsas verir ki, Quba-Xaçmaz regionu həyata keçirilən tədbirlər nəticəsində sürətlə inkişaf etmişdir. Çiçəklənən Azərbaycanın bir regionu olaraq bu gün də davamlı inkişaf yolundadır.

Dissertasiyanın ümumiləşdirilməsi zamanı bir sıra mühüm nəticələr əldə olunmuşdur ki, onlar aşağıdakılardır:

- ✓ Azərbaycanın müstəqillik əldə etdiyi ilk illərdə iqtisadi və siyasi böhran vəziyyətindən çıxmaq üçün mühüm qərarların verilməsi olduqca vacib idi. Republikada baş verən bütün proseslər şimal-şərq regionuna da ağır təsir göstərirdi;
- ✓ Quba-Xaçmaz regionunda kənd təsərrüfatı üstünlük təşkil etdiyindən bazar münasibətlərinin formalaşdığı bir zamanda xüsusi aqrar qanunların işlənib hazırlanması və Quba, Qusar, Xaçmaz, Dəvəçi(Şabran) və Siyəzən rayonlarına tətbiqi mühüm əhəmiyyətə malik oldu;
- ✓ Regionda yeni təsərrüfat formalarının yaradılması kənd təsərrüfatında baş verən geriləmənin qarşısını almış, daha sonra ləng də olsa, ildən-ilə bu sahədə artım müşahidə olunmuşdur. Lakin böyük fermer təsərrüfatları yaradılmamamış, kiçik təsərrüfatlarda isə gözlənilən nəticəni əldə etmək çox çətin idi, ona görə də bu gözləntilər özünü doğrultmamışdır;
- ✓ Bütün ölkə ərazisində aparılan çoxşaxəli islahatların tərkib hissəsi olan özəlləşdirmənin ölkənin şimal-şərq rayonlarında həyata keçirilməsi nəticəsində sahibkarlar sinfi formalaşdı, infrastruktur inkişaf etdi;
- ✓ Regionların inkişafına dair qəbul edilmiş silsilə proqramlar Quba-Xaçmaz regionunun dinamik inkişafında mühüm əhəmiyyətə malik olmuşdur;

- ✓ Regional İnkişaf Proqramları ildən ilə təkmilləşdirilir, bu gün də davam etdirilir və şimal-şərq regionunda da mühüm nəticələrini görə bilirik. Lakin buna baxmayaraq regionda işsizlik problemi yenə də hiss olunur. Bəzən bu problem üzündən qonşu ölkələrə də işləmək üçün gedənlər də az deyil;
- ✓ Ümummilli lider Heydər Əliyevin başladığı və ölkə Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi islahatların məqsədi əhalinin həyat şəraitinin, sosial-mədəni səviyyəsinin yüksəldilməsinə xidmət edir. İslahatlar regionda davamlı həyata keçirilmiş və böyük nailiyyətlər əldə olunmuşdur.

Dissertasiya işindən gələcəkdə bu problemlə maraqlananlar — tarixçi, iqtisadçı, sosioloqlar istifadə edə bilərlər. Habelə regionun perspektivlərindən istifadə edərək öz işini qurmaq istəyən sahibkarlar, bu regionun sosial-iqtisadi vəziyyəti ilə maraqlanan ayrı-ayrı təşkilatlar dissertasiyada verilən tövsiyyələrdən faydalana bilərlər.

## DİSSERTASİYANIN MƏZMUNU AŞAĞIDAKI NƏŞR OLUNAN ƏSƏRLƏRDƏ ƏHATƏ OLUNMUŞDUR:


1. Nərimanlı, Ə.E. 2003-2013-cü illərdə Quba rayonunda sosial-iqtisadi inkişaf // - Bakı: Pedaqoji Universitet Xəbərləri, - 2015. № 3, - s. 70-72.
2. Nərimanlı, Ə.E. “Regionların İnkişafı Proqramı” çərçivəsində Quba-Xaçmaz regionunun sosial-iqtisadi inkişafı // “Müasir elmin aktual problemləri” respublika elmi-praktik konfransının materialları.- Lənkəran: Lənkəran Dövlət Universiteti. -2016.- s.168-169.
3. Nərimanlı, Ə.E. Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin Quba rayonunun inkişafına göstərdiyi qayğı // Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransının materialları. -Bakı:Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. - 2016. – s.503-505.

4. Nərimanlı, Ə. E., Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Quba-Xaçmaz regionunun sosial-iqtisadi inkişafina göstərdiyi qayğı // "Strateji iqtisadi islahatlar: qabaqlayıcı vergi siyasəti" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransın materialları. – Bakı: AMEA İqtisadiyyat İnstitutu. – 2017. – s. 187-191.
5. Nərimanlı, Ə.E. Quba-Xaçmaz regionunda Aqrar İslahatlar və özəlləşdirmənin həyata keçirilməsi // "Müasir dünyada inteqrasiya və elmin aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları. -Lənkəran: Lənkəran Dövlət Universiteti. – 2017. – s.84-85.
6. Nərimanlı, Ə.E. XX əsrin sonu- XXI əsrin əvvəllərində Quba-Xaçmaz regionunun sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa yönəlmiş tədbirlər // II İnternatıonal Scıentıfıc Conference of Young Researchers. 2 nd book. -Baku Engineering University. -2018. – s. 1677-1680.
7. Нариманлы, А. Е. Об особенностях политики Азербайджанского руководства по развитию регионов страны // -Киев: Национальна Академія Наук Украіни. Институт сходознавства им. А.Ю.Кримського. XXII сходознавчи читання А.Кримського -2018. Зм.62-63.
8. Nərimanlı, Ə.E. SSRİ-nin dağılmasının Quba-Xaçmaz regionunun iqtisadi vəziyyətinə təsiri // - Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2018. –c. 69, - s.70-79.
9. Nərimanlı, Ə.E. Ümummilli lider Heydər Əliyevin Quba-Xaçmaz regionunun sosial-iqtisadi inkişafina göstərdiyi qayğı // - Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2018. -c. 73, - s.146-154.
10. Nərimanlı, Ə.E. Quba-Xaçmaz regionunda "Regionların İnkişafı Dövlət Proqramı" çərçivəsində sosial-iqtisadi inkişafın sürətləndirilməsi(2004-2008) // - Bakı: Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, -2018. № 3, -s.206-209.
11. Нариманлы, А. Е. Рекреация и туризм в контексте развития несырьевой экономики Азербайджана: по материалам Губа-Хачмазского региона 2004-2012 г г // - Москва: -2019, Современная научная мысль (1), - с.164-169.

12. Nərimanlı, Ə.E. Heydər Əliyev və Azərbaycan dövlətçiliyi // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Regionlarda ali təhsil: reallıqlar və perspektivlər” mövzusunda keçirilmiş III beynəlxalq elmi konfransının materialları. – Quba: ADPU-nun Quba filialı. – 2023. – s.322-325.
13. Nərimanlı, Ə.E. Quba-Xaçmaz regionunun rayonlarında nəqliyyatın, turizmin və infrastrukturun inkişafı(XX əsrin sonu və XXI əsrin ilk illərində) // - Bakı: Turizm və Menecment Universiteti, Turizm və qonaqpərvərlik tədqiqatları,-2023. № 3-4, - s.41-50.

Dissertasiyanın müdafiəsi 25 aprel 2024-cü il tarixində saat 13:00 Azərbaycan Milli Elmlər Akademiyası Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 mart 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.03.2024

Kağızın formatı: A5

Həcm: 43.630

Tiraj: 100